# NİZAMİ YURDUNDA VAQİF POEZİYA GÜNLƏRİ

**Şuşanın müxtəlif tarixi və mədəni məkanlarında, o cümlədən Heydər Əliyev Fondu tərəfindən bərpa olunan Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, həmçinin Natəvanın evi qarşısında, Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında təşkil olunan Vaqif Poeziya Günləri öz meridianlarını daha da genişləndirdi. İyulun 14-də Molla Pənah Vaqifin doğulduğu Qazax rayonunda start götürən növbəti Poeziya Günləri iyulun 15-də Gəncə şəhərində, iyulun 16-da Ağdam rayonunda davam etdi.**

Tanınmış ədəbiyyat və incəsənət xadimləri, dövlət və hökumət nümayəndələrinin iştirak etdiyi tədbirlərdə poeziya saatları, kitab sərgiləri və təqdimatlar, musiqili kompozisiyalar, elmi konfranslar, teatr tamaşaları və müxtəlif ədəbi-bədii proqramlar əsl poeziya bayramına, Molla Pənah Vaqif poeziyasının əbədiyaşarlığının ifadəsinə çevrildi. Qədim şeir-sənət ocağında keçirilən görüşlər bəşəri ideyaların dahi carçısı Nizami Gəncəvi ilə milli realizmin poeziyasını yaradan Molla Pənah Vaqif yaradıcılığının qoşa qanadı kimi tarixə yazılıbdı.

**AMEA Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Əlimuxtar Muxtarov** Vaqif Poeziya Günlərinin Gəncə görüşləri barədə deyib:

- Azərbaycan xalqının milli-mənəvi kimliyi, tarixi və mədəni yaddaşı poeziya ilə sıx bağlı olmuşdur. Xüsusilə klassik poeziyamızın iki böyük siması - Nizami Gəncəvi və Molla Pənah Vaqif Azərbaycan mədəniyyətində təkcə şair deyil, həm də milli ruhun, zəka və estetik düşüncənin daşıyıcıları kimi formalaşmışdır. Onların yaradıcılığını yaşatmaq, gənc nəslə çatdırmaq və beynəlxalq səviyyədə tanıtmaq məqsədilə təşkil olunan Nizami və Vaqif Poeziya Günləri həm ədəbi, həm də ictimai-siyasi baxımdan mühüm hadisələrdir. Bu ənənələrin əsasını qoyan ümummilli lider Heydər Əliyev Azərbaycan mədəniyyətini dövlət siyasətinin tərkib hissəsinə çevirmişdir. Onun müəyyənləşdirdiyi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan ədəbiyyatı tarixində elə dahi şəxsiyyətlər vardır ki, onların yaradıcılığı yalnız öz dövrləri üçün deyil, həm də bütün bəşəriyyət üçün əbədi dəyər daşıyır. Bu şəxsiyyətlərdən biri XII əsrdə yaşamış, Şərq renessansının banilərindən olan Nizami Gəncəvi, digəri isə XVIII əsr Azərbaycan realist poeziyasının banisi Molla Pənah Vaqifdir. Onların hər biri Azərbaycan poeziyasını müxtəlif aspektlərdən zənginləşdirmiş, mənəviyyat, hikmət, vətənpərvərlik və bəşəri idealların daşıyıcı olmuşdur.

Nizami Gəncəvi öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatını dünya ədəbiyyatı səviyyəsinə yüksəltmişdir. Onun "Xəmsə"si (beşlik poemalar silsiləsi) - "Sirlər Xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi Gözəl" və "İskəndərnamə" əsərləri həm mövzu zənginliyi, həm də bədii dəyəri ilə dünya poeziyasının nadir inciləridir. Nizaminin əsərlərində sevgi ilə yanaşı ağıl, ədalət, elmi düşüncə və mənəvi saflıq təbliğ olunur. Onun fəlsəfi görüşləri, insanın kamilliyə doğru gedən yolunu tərənnüm edən poetik obrazları yüz illər boyu Şərq poeziyası üçün örnək olmuşdur.

XVIII əsrdə yaşayıb-yaratmış Molla Pənah Vaqif Azərbaycan realist poeziyasının banisi hesab olunur. O, Nizami kimi klassik süjetlərə deyil, daha çox xalqın gündəlik həyatına, real hisslərinə, təbiətə və sevgiyə diqqət yetirmişdir. Vaqifin poetik dili sadə, aydın və xalq ruhuna yaxın idi. Onun şeirlərində gözəllik, yaşamaq sevinci, insanlara məhəbbət öz əksini tapıb. Vaqifin yaradıcılığı yalnız poetik deyil, həm də siyasi fəaliyyətlə müşayiət olunurdu. Qarabağ xanlığında vəzirlik edən Vaqif, xalqın maariflənməsi və idarəçilikdə yeniliklərin tətbiqi üçün mübarizə aparmışdır. Bu baxımdan onun fəaliyyəti də Nizaminin ideyaları ilə səsləşir: xalqın rifahı, təhsilin və mənəviyyatın yüksəldilməsi. 1982-ci ildən başlayaraq Şuşa şəhərində təşkil olunan Vaqif Poeziya Günləri Azərbaycan poeziyasının, xüsusilə də klassik irsin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Bu ədəbi-bədii tədbir Azərbaycan xalqının ədəbiyyatına, tarix və mədəniyyətinə ehtiramının bir təzahürüdür. 2020-ci ildə Azərbaycan xalqının 44 Günlük Vətən müharibəsindəki tarixi zəfərindən sonra Vaqif Poeziya Günlərinin yenidən bərpa olunaraq keçirilməsi, təkcə Vaqifin deyil, ümumən klassik Azərbaycan poeziyasının dirçəlişi kimi qiymətləndirilməlidir. Bu günlər yalnız Vaqifə deyil, onunla yanaşı Nizami Gəncəvi kimi dahi sənətkarların irsinə də diqqəti artırır.

Vaqif Poeziya Günlərinin Gəncə şəhərində - Nizami Gəncəvinin yurdunda keçirilməsi, dərin simvolik mənaya malikdir. Bu addım, Azərbaycan ədəbiyyatının iki zirvəsi arasında mənəvi və ədəbi körpü qurmaq məqsədi daşıyır. Gəncə - təkcə Nizaminin deyil, Azərbaycan klassik poeziyasının doğulduğu müqəddəs məkandır. Burada keçirilən tədbirlər poeziya mədəniyyətimizin davamlılığını, Nizami irsinin çağdaş poeziyada yaşadığını göstərir.

2021-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə "Nizami Gəncəvi İli" elan olunması, eyni zamanda Şuşanın Azərbaycan mədəniyyət paytaxtı elan edilməsi ilə paralel şəkildə Vaqif Poeziya Günlərinin keçirilməsi, ədəbiyyatla dövlətçilik düşüncəsinin necə sıx bağlı olduğunu bir daha sübut etdi. Nizami Gəncəvi və Molla Pənah Vaqif - biri bəşəri ideyaların, digəri isə milli realizmin poeziyasını yaradan iki böyük dahidir. Onların hər ikisi Azərbaycan poeziyasının müxtəlif dövrlərində sözün qüdrətini nümayiş etdirmiş, millətin ruhunu formalaşdırmışdır. Bu gün onların adına keçirilən tədbirlər - xüsusilə Vaqif Poeziya Günlərinin Nizami yurdunda təşkil olunması ədəbiyyat tariximizdə yeni bir mərhələni, milli özünüdərk prosesində poeziyanın daşıdığı əhəmiyyəti ortaya qoyur. Bu tədbirlər təkcə keçmişə deyil, gələcəyə də işıq tutur.

Heydər Əliyev Fondunun, Mədəniyyət Nazirliyinin və Yazıçılar Birliyinin təşkilatçılığı ilə keçirilən Vaqif poeziya Günləri ildən-ilə forma və məzmunca yeni ideyalarla zənginləşir, yeni hədəflər, çağırışlar ehtiva edir. Bu ildən etibarən bu böyük poeziya bayramının Qazaxdan başlayaraq Gəncədə, Ağdamda davam edib, Türk-İslam dünyasının mədəniyyət paytaxtı Şuşada yekunlaşması bunun bariz təzahürüdür.

Nizami və Vaqif Poeziya Günləri təkcə ədəbiyyat bayramı deyil, Azərbaycan dövlətinin mədəniyyətə, tarixə və şəxsiyyətə verdiyi dəyərin simvoludur. Bu tədbirlər yalnız poeziyanın deyil, həm də zəfərin, milli ruhun və dövlətçilik ideologiyasının təntənəsidir.

**Söhbəti yazdı:
Vaqif TANRIVERDİYEV,
"Respublika".**

Respublika .- 2025.- 20 iyul (№ 148).- S.10.